

Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 01-02 (553) | 25 yanvar 2018-ci il | Qəzet 1937-ci ildən çıxır | Rayonun ictimai-siyasi qəzeti | Qiyməti 40 qəpik


***Prezident İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etməlidir.



## 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncam imzalayıb

Bundan başqa, Milli Məclisə soyqırımının 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilir.

Sərəncamda bildirilir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerləyeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaradıb, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görüb. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkar olunub. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart - aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut edib.

## Azərbaycan xalqının istiqlalına yol açan şanlı tarix - 20 Yanvar

Lerik Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə 20 Yanvar faciəsinin 28-ci ildönümünün keçirilməsinə dair Lerik RİH-in tədbirlər planı təsdiq edilmişdir. Həmin tədbirlər planına uyğun olaraq rayonun idarə və müəssisələrində, səhiyyə, təhsil və mədəniyyət ocaqlarında bir sıra tədbirlər həyata keçirilmiş, rəsm və inşa yazı müsabiqələri keçirilmiş, sənədli filmlər nümayiş etdirilmişdir.

Tədbirlər planına uyğun olaraq Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, rayonun hüquq mühafizə orqanlarının, idarə təşkilat və müəssisələrin kollektivləri, ağsaqqallar və ictimaiyyətin nümayəndələri, məktəblilər Şəhidlər abidə kompleksinin önündə tər gül-çiçək dəstələri düzərək faciə qurbanlarının xatirəsini ehtiramla yad etdilər.







Sonra mərasim iştirakçıları tərəfindən Lerik Rayon Mədəniyyət mərkəzində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş rayon məktəblilərinin əl işi olan "20 Yanvar qan yaddaşımızdır" adlı rəsm əsərlərinin sərgisinə baxış keçirildi və şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin hazırladığı bədii kompozisiya nümayiş etdirildi.

20 Yanvar faciəsi XX əsrdə Azərbaycan xalqına, insanlığa qarşı törədilmiş bəşəri cinayətlərdən biridir. Mixail Qorbaçov başda olmaqla Sovet imperiyasının rəhbərliyi guya Bakıya qoşunları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq ritakarlıq, ağ yalan idi. Çünki Sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşuna ehtiyac yox idi.

Tanklar və BTR-lər Bakının küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənəzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn təcili yardım maşınlarını, tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 147 nəfər öldürüldü, 744 nəfər günahsız insan yaralandı və ya şikəst edildi, 841 nəfər heç bir əsas olmadan həbs edildi...





Yanvarın 20-də Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrinin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi.

Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

## 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə ümumrayon tədbiri



31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayramsayağı bəzədilmiş Lerik şəhərinin Heydər Əliyev Meydanında yeni il rəmzi olan Yolka ətrafında Şaxta Baba və Qar qızın iştirakı ilə rayon icra hakimiyyəti, idarə, təşkilat və müəssisələrin kollektivləri, ağsaqqalların, məktəblilərin və rayon ictimaiyyətinin iştirakı ilə ümumrayon tədbiri və bayram konserti keçirildi.

Bayram tədbirini Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov açıq elan edərək tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik etdi.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev çıxış edərək rayon icra hakimiyyəti başçısının rayon əhalisinə xoş arzularını və təbriklərini çatdırdı. Prezident cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində 2017-ci ilin də uğurla başa vurulduğunu bildirdi. 2017-ci il ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunduğunu, bu il paytaxtımızda IV İslam Həmrəyliyi Oyunları böyük uğurla keçirildiyini, bütün İslam ölkələrinin nümayəndələrini bir araya gətirərək əsl həmrəylik bayramı olduğunu, əsl dostluq və qardaşlıq təntənəsinə çevrildiyini qeyd etdi.

2017-ci ildə çox vacib irimiqyaslı layihələrin həyata keçirildiyini vurğulayan natiq Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyini, "Əsrin kontraktı"nın 2050-ci ilə qədər davam edəcək ikinci mərhələsinə imza atıldığını və digər sahələrdə işlər davam etdiyini diqqətə çatdırdı.

Respublikamızda olduğu kimi yola saldığımız ildə rayonda həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri, əldə olunan uğurlar barədə məlumat verdi. 2018-ci ildə qarşıya mühüm vəzifələrin qoyulduğunu qeyd edən natiq əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun davam etdirildiyini və bunun nəticəsində qarşıdakı illərdə də nailiyyətlərimizin daha da çox olacağına, quruculuq işlərinin davam edəcəyinə əmin olduğunu bildirdi.

Tədbirdə rayon Mədəniyyət Mərkəzinin musiqi kollektivinin hazırladığı musiqi nömrələri nümayiş etdirildi və məktəblilərin ifasında şeirlər səsləndirildi.



Şaxta Baba və Qar qız rayon sakinlərini və tədbir iştirakçılarını təbrik etdi, Şaxta Baba uşaqlara hədiyyələr payladı.

**Redaktordan**

## Ən dəhşətli cinayətə beynəlxalq qurumlar hüquqi qiymət verməlidirlər

***Hər il 20 Yanvar faciəsinin ildönümünü Respublikamızda ümumxalq hüzn günü kimi qeyd olunur və şəhidlər ehtiramla yad edilir. Doğrusu, həmin günləri yada salmaq nə qədər kədərlidirsə, doğma yurdun azadlığına və öz hüquqlarının müdafiəsinə qalxmış çoxmillətli xalqımızın qürur hissi keçirdiyinə sevinirik.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun qoşunları qəfildən Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin bir çox digər şəhər və rayonlarına yeridilib, tanklar digər ağır hərbi texnikadan, qoşunlardan istifadə etməklə dinc əhalini atəşə məruz qoyub. Bununla da insan hüquqları kobudcasına pozulub, insanlıq əleyhinə qatı cinayət törədilib.

Törədilən həmin qanlı hadisələr nəticəsində 147 nəfər silahsız mülki şəxs, o cümlədən yaşlılar, qıadınlarvə uşaqlar amansızcasğına öldürülüb, 744 dinc, günahsız insan yaralanıb, çoxlu adam itkin düşüb. 841 nəfər qanunsuz həbs edilib. Fövqəladə vəziyyət elan edildikdən sonra daha 21 nəfər öldürülüb. Hücum zamanı qadağan olunmuş silah və sursatdan istifadə olunub, dağıntılar törədilib.

Beləliklə də, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasin Hüquqlar haqqında Beynəlxalq fakt və digər beynəlxalq hüquqi sənədlər kobudcasına pozulub. Öz mahiyyətinə və miqyasına görə XX əsrdə törədilmiş ən dəhşətli cinayət hesab olunur, heç bir insanlıq və humanizm ölçülərinə sığmır. Çox təəssüflər olsun ki, 20 Yanvar hadisələrinə 28 il ötməsinə baxmayaraq, hələ də hüquqi qiymət verilməyib, qanlı aksiyanın sifarişçiləri və icraçıları öz cəzasına çatmayıb. Halbuki bundan ötrü yetərincə əsaslar mövcuddur.

Qanlı yanvar haldisələri baş verən günün səhərisi Azərbaycan xalqının sevimli rəhbəri, ulu öndər Heydər Əliyev oğlu İlham Əliyevlə bərabər Moskvada Azərbaycan nümayəndəliyinə gələrək sərt bəyanat verdi, günahkarların cəzalandırılmasını tələb etdi.

20 Yanvarın qanlı hadisələri, o vaxtkı Sovet rəhbərliyinin törətdiyi cinayət əməlləri xalqın əzmini, iradəsini qıra bilmədi.

Xalqın azadlıq mübarizəsi 1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpası ilə nəticələndi. Prezident Heydər Əliyevin tövsiyyəsi ilə Milli Məclis xüsusi sessiya keçirib bu qanlı hadisəyə siyasi-hüquqi qiymət verildi. 20 Yanvar tarixi respublikamızda hər il ümumxalq hüzn günü kimi qeyd olunur.

Hər il minlərlə insan Yanvarın 20-də Vətənin azadlığı və



suverenliyi uğrunda canlarından keçmiş oğul və qızlarımızı ehtiramla yad etmək üçün Şəhidlər Xiyabanını ziyarət edir. Qanlı Yanvar faciəsinin günahkarları, təşkilatçıları və icraçıları layiq olduqları cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Bu hadisələrdə iştirak etmiş şəxslər və hələlik öz vicdanları qarşısında cavabdehdirlər.

20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısı göstərilir, bu şəxslərə dövlət tərəfindən müavinət, şəhid ailələrinə isə Prezident təqaüdü verilir. Şəhidlər haqqında sənədli filmlər çəkilir, kitablar yazılır, məqalələr dərc olunr, həqiqət dünya ictimaiyyətinə çatdırılır.

Biz əminik ki, Azərbaycan xalqının haqlı tələbləri beynəlxalq qurumlar və dünya ictimaiyyəti tərəfindən dəstəklənəcək, vaxt gələcək günahkarlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaq, insanlıq əleyhinə cinayətə tezliklə beynəlxalq hüquqi qiymət veriləcək.

## Bələdiyyələrə qəbiristanlıqların idarə edilməsi səlahiyyətini verən qanun qüvvəyə minib

Prezident İlham Əliyev bələdiyyələrə qəbiristanlıqların idarə edilməsi sahəsində səlahiyyət verilməsini nəzərdə tutan "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanununun tətbiqi haqqında Fərman imzalayıb.

Bundan sonra bələdiyyələrin yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq mövcud qəbiristanlıqların idarə olunması, saxlanılması və köçürülməsi, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn mərasimlərinin təşkilinə yardım göstərilməsi nəzərdə tutulmalıdır.

## Rayon icra hakimiyyətinin başçısı vətəndaşları qəbul etdi



Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 25 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Vətəndaşlar tərəfindən səsləndirilən müraciətlər əsasən işlə təmin olunma, sosial problemlər, yaşayış evlərinə qaz və su-kanalizasiya xətlərinin çəkilməsi, maddi yardım istəməsi və digər məsələlər barədə olmuşdur.

Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılan həlli mümkün problemlərin aradan qaldırılmasına müvafiq köməklik göstərilmişdir. Araşdırılmaya ehtiyac olan bəzi müraciətlər isə qeydiyyata götürülmüş, həlli üçün aidiyyəti vəzifəli şəxslərə konkret tapşırıqlar verilmişdir.

## Ərazi icra nümayəndəliklərində hesabat yığıncaqları

### Qosmalian

Qosmalian kənd ərazi icra nümayəndəliyində ötən ildə görülmüş işlərin yekunu və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilmişdir. Yığıncaqda Qosmalian kənd ərazi icra nümayədəsi Oqtay Şıxəliyevin məruzəsi dinlənilmiş, qazanılmış uğurlarla yanaşı içdəki nöqsanlar, problemlər və onların aradan qaldırılması yolları göstərilib, bir sıra əməli təkliflər verilib.

Qosmalian kənd xəstəxanasının baş həkimi Vaqif Bədəlov çıxışında işlədiyi xəstəxananın əsaslı təmirə ehtiyacı olduğunu, Sabir Quliyev meyvəçiliyin inkişaf etdirilməsi üçün sututarların yaradılmasını, meyvə emalı sexinin tikintisini, Qələsər kənd sakini Elxan Hüseynov Qələsər kəndinə qaz kəməri çəkilməsinin zəruriliyini, bələdiyyə sədri Vaqif Bayramov meyvəçilik və arıçılığın inkişaf etdirilməsini, sahibkarlara güzəştli kreditlər verilməsini öz çıxışlarında diqqətə çatdırdılar.

Kənd sakinlərindən Sücəddin Eminov, Rüfət Vəliyev, Etibar Nəhmətov, Arif Cabbarov öz çıxışlarında ərazidə görülmüş mühüm işlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə əhali adından minnətdarlıq etdilər.

Yığıncaqda yekun sözü ilə çıxış edən Lerik Rayon İcra Hakimiyyətinin birinci müavini Cəlil Baxşıyev ərazidə görülmüş işlərin qənaətbəxş olduğunu göstərdi, işdə olan nöqsanların aradan qaldırılması barədə tövsiyyələrini verdi.

Yığıncaq müzakirə edilən məsələ ilə əlaqədar qərar qəbul etdi.

### Molalan

Molalan kənd ərazi icra nümayəndəsi Ələkbər Kəriəmov məruzəsində görülmüş işləri yığıncaq iştirakçılarının diqqətinə çatdırmaqla yanaşı, qarşıda duran vəzifələri bir-bir söylədi. O, dedi ki, əhali Azərbaycan Prezidenti İlham Əliyevin daxili və xarici siyasətini bəyənir və dəstəkləyir.

Molalan bələdiyyəsinin sədri Rahil Məmmədov çıxış edərək dedi: - Ötən il torpaqla bağlı bizə çoxlu müraciətlər daxil olmuşdur. Lakin onların hamını həll edə bilməmişik. Torpaqların inventarizasiyası aparılmadığı üçün dövlət və bələdiyyə torpaqlarının sərhədi məlum deyil. Ərazidə yollar, su kəməri cari təmir edilmişdir. Ötən illərə nisbətən əkin sahələrinin həcmi xeyli artmışdır.

Vəliş Quliyev öz çıxışında bildirdi ki, ərazidə abadlıq işləri xeyli artmışdır. Elektrik enerjisinin verilməsində fasilələrı yol verilir. Yeni iş yerləri olmadığı üçün gənclər kəndi tərk edirlər.

Mirzəkişi Əliyev dedi ki, 2005-ci ildə Sors kəndinin böyük bir hissəsi sürüşməyə məruz qaldı. Mənə verilmiş pay torpaq həmin sürüşmə zolağında yerləşdiyindən konpenksasiya ala bilmirəm bizdən və torpaq vergisi tutulur. Mənə kömək etməyinizi xahiş edirəm.

Molalan kənd ümumi orta məktəbinin direktoru Abdulla Əliyev bildirdi: - Təhsildəki nəticələrimiz sevindiricidir. Məzunlar müxtəlif ali məktəblərə daxil olmuşlar. Kəndimizdə gələn elektrik xəttinə enerji verilməsi kəsildiyindən məktəbin istilik sistemi işləmir və bu valideynlərin haqlı narazılığına səbəb olur.

Yığıncaqda RİH-in hüquq şöbəsinin müdiri Araz Quliyev çıxış etdi, uğurlarla yanaşı, 2018-ci ildə qarşıda duran vəzifələrlə bağlı yekun nitqi söylədi.

Yığıncaq hesabat məruzəsində və çıxışlarda irəli sürülən iradları nəzərə alaraq qərar qəbul etdi.

### Orand

Lerik RİH başçısının Orand kənd ərazi icra nümayəndəsinin hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda "2017-ci ildə görülən işlər və 2018-ci ildə qarşıda duran vəzifələr" barədə kənd ərazi icra nümayəndəsi Şahbaz Rəhimov məruzə etmişdir.

Məruzə ətrafında Orand bələdiyyəsinin sədri Hamil Mustafayev, ağsaqqal Zəkulla Nadiyev, Əziz Cənnətov, Tərlan Əliyev, Aşur Rəhimov, Vaqif Mustafayev, poçt şöbəsinin müdiri Xəzər Mikayılov, Orand kənd tam orta məktəbinin direktor müavini Babək Rəhimov çıxış etmiş, bir sıra problemlərə toxunmuşlar. Göstərilmişdir ki, Lerik-Orand avtomobil yolu əsaslı təmir edilməlidir. Orand kənd tam orta məktəbi neçə illərdir təmirsiz qalıb. Yeni poçt şöbəsinin tikintisinə, ATS-in quraşdırılmasına ehtiyac vardır. Kənd camaatına odun yanacağı çox baha başa gəlir, mavi qazın verilməsi üçün tədbir görülməlidir. Orand kəndindəki məktəbin problemləri çoxdur. Əsas məsələ yeni məktəbin tikintisinə başlamaqdır.

Lerik RİH başçısı aparatı hüquq şöbəsinin müdiri Araz Quliyev hesabat yığıncağında çıxış etmiş, səslənən irad və təkliflərə münasibət bildirmiş, perspektiv vəzifələrdən danışmışdır.

Yığıncaq məruzə və təklifləri, tənqidi çıxışları nəzərə alaraq konkret qərar qəbul etmişdir.

## 20 Yanvar faciəsinin canlı şahidi



20 Yanvar hadisələri başlanan zaman mən Bakıdan "Azon" zavodunda operator işləyirdim. 20 Yanvara qədər və ondan sonrakı dövrdə hadisələr çox gərgin olaraq davam edirdi. Mitinqlərdə eşitdiklərimizdən hiss edirdik ki, nəsə bir olay baş verəcək. Elə də oldu.

Yanvarın 19-dan 20-nə keçən gecə bəzi adamların çağırğışı ilə Tbilisi prospektinə (indiki 20 Yanvar küçəsi) getdik. Məqsəd rus qoşunlarının Bakıya girməsini əngəlləmək idi. Daha fikirləşmirdik ki, əliyalın insanlar tankların, digər zirehli texnikanın, təpədən dırnağadək yaxşı təlim görmüş silahlı əsgərlərin qarşısına çıxmaqla qoşunun qarşısını ala bilməz.

Məndən başqa tanıdığım dörd nəfər Lənkəranlı da burada idi. Zirehli texnika şəhərə daxil olan zaman baş verən qanlı hadisələri təsəvvür etməzdik. Ölənlər vardı, yaralananlara yardıma gələn tibb işçilərinə, onların maşınlarına atəş açırdılar. Yaxınlığımızda bir nəfəri avtomat gülləsi ilə vurub öldürmüşdülər. Biz köməkləşib onu morqa apardıq. Həmin şəxsin adını unutmuşam, ancaq şəhid Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunub, qəbrini ziyarət etmişəm.

20 Yanvar faciəsindən sonra müxtəlif hadisələrin şahidi olmuşam. Hər dəfə yanvar ayı gələndə qanlı-qadalı günləri xatırlayır, daxili iztirab keçirir, lakin xalqımızın azadlığı uğrunda mücadiləyə qoşulmuş, öz sinələrini tanklara sipər etmiş şəhidlərlə, azadlıq mücahidləri ilə fəxr edirəm. Onlar azadlıq yolunda canlarını fəda etdilər, heç zaman qəlbimizdən silinməyəcək, xatirələrdə, xalqın əbədi yaddaşında yaşayacaqlar.

***Rasim Əsgərov,***
***20 Yanvar faciəsinin şahidi***

## Kənd təsərrüfatı prioritet sahə olaraq qalır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti ilə yeni inkişaf mərhələsinin başlanğıcında olan Azərbaycan bəzi dövlətlərdən fərqli olaraq artıq özünün uğurlu iqtisadi modelini seçmişdir. İstənilən böyük dövlətlərdə inkişafın davamlılığını təmin edən başlıca amillərdən biri məhz strateji hədəflərin düzgün müəyyənləşdirilməsidir. Bu gün Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi baxımından kənd təsərrüfatı böyük potensiala malikdir. Aqrar sektora güzəştli kreditlərin, vergi güzəştlərinin, subsidiyaların verilməsi, aqrolizing xidmətlərinin göstərilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət başçısı tərəfindənson illər ərzində verilmiş fərman və sərəncamlar, qəbul edilmiş qanunlar, qərarlar aqrar sektorda iqtisadi fəallığın kəskin yüksəlməsinə səbəb olmuşdur. Həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaratmışdır. Aqrar sektorda əsaslı dəyişikliklər baş berib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb, normativ hüquqi baza təkmilləşdirilib. Xüsusilə kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun aqrar sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi bu sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur.***

Rayonumuz aqrar rayondur. Əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Rayon üzrə torpaq balansına görə 13645 ha əkinə yararlı torpaq sahəsi vardır. Ondan 11422 ha əkin sahəsi, 602 ha bələdiyyənin ehtiyat fondu, 1621 ha meşə fondunda olan torpaqlardır. Vətəndaşlarla aparılmış maarifləndirmə və izahat işləri nəticəsində əkin sahələrinin dövriyyəsi xeyli artrmışdır. Belə ki, 2017-ci ilin məhsulu üçün 2016-cı ilin payızında və 2017-ci ilin yazında 4949 ha-da, əvvəlki ilə nisbətən 694 ha çox, o, cümlədən 3126 ha-da dənli və dənli paxlalı bitkilər, müqayisədə 850 ha çox əkin aparılmışdır. Həmçinin 1377 ha kartof, 318,5 ha sahədə müxtəlif növ tərəvəz, 25 ha tütün və269,3 ha sahədə digər yazlıq bitkilər əkilmişdir.Taxıl biçini optimal müddətdə başa çatmış,6289 ton, əvvəlki ilə nisbətən 2649 ton çox buğda və arpa, hər hektardan 23,5 sent. məhsul istehsal olunmuş, keçən illə müqayisədə hər hektardan məhsuldarlıq 5,5 sentner artıq olmuşdur. Məhsul istehsalçılarından Cahid Qubadov, İmran İbadov, Rükəxan Əziziov, Gülverdi Əsgərov, Müzəffər Mirzəyev, İsa Bagırov, Əbülfət Hacıyev, Ağarəhim Nəzərov hər hektardan 30-40 sentnerdən artıq məhsul əldə etmişlər. 1377 ha kartof sahəsindən 17350 ton kartof,318,5 ha tərəvəz sahəsindən 4128 ton tərəvəz, 166,5 ha paxlalı bitkilər yığılmış, 262,3 ton məhsul istehsal olunmuşdur. 2018-ci ilin məhsulu üçün 2878 ha sahədə payızlıq taxıl əkilmişdir. Göründüyü kimi hər il əkin sahələri genişlənir, məhsul istehsalı da artır. Cənab Prezidentimizin tapşırdığı kimi əkinə yaralı torpaqlar əkilməli, torpaqlar istifadəsiz qalmamalıdır. Lakin əkinə yararlı torpaqlar tam əkilmir, toraqların çoxu istifadəsiz qalır. Nuravud, Orand, Tülüconu ərazilərində əkinə yararlı pay torpaqları uzun müddətdir əkilməmiş qalmışdır. Bir çox ərazilərdə torpaqların 10-20 faizi əkilib beçərilir. Ərazi icra nümayəndələri, bələdiyyələr bu işdə fəallıq göstərməli, istifadəsiz qalmış torpaqlar əkin dövriyyəsinə daxil edilməlidir.

Rayonumuzda 35984 baş iri buynuzlu qara mal, 92810 baş xırda buynuzlu qara mal vardır.Diri çəkidə 4619.5 ton mal qara və quş əti, 15962,5 ton süd, 229.0 ton yun (fiziki çəkidə) və 7341 min ədəd yumurta istehsal edilmişdir. 2017-ci ilin eyni dövrü ilə müqayisədə 2165 baş qara-mal, o cümlədən 453 baş inək və camış, 10987 baş qoyun-keçi azalmışdır.20,9 ton ət, 270.8 ton süd və6 min ədəd yumurta çox istehsal olunmuşdur. Yun istehsalı 2 ton azalmışdır. Heyvandarlıqda xüsusən qoyunçuluqda heyvanların baş sayının azalmasının səbəbi Neftçala və Biləsuvar rayonlarında qış otlaq sahələrinin fermerlərə verilməsi barədə bağlanmış icarə müqavilələrinə birtərəfli qaydada xitam verməsidir. Əgər bu sahədə köməklik olunmasa rayonumuzda qoyunların baş sayının kəskin azalmasına gətirib çıxarmaqla, qoyunçuluqla məşğul olan fermerlərin maddi vəzyyətinin pisləşməsinə səbəb olacaqdır.

İri buynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırlması üçün xaricdən cins heyvanlar alınıb respublikaya gətirilir vəyerlərdə heyvanlarda süni mayalanma tədbirlərihəyata keçirilir. Rayonumuzda da ayrı-ayrı vətəndaşlar tərəfindən lizing yolu ilə cins heyvanlar alınmış və saxlanılır.Pirasora kənd sakini İman Hüseynov 34 baş,Lüləkəran kənd sakini Rauf Əliyev 2 baş, Şivlə kənd sakini Nurxan Ağayev 1 baş, Əliabad kənd sakini Əliağa Abbasov 1 baş, Lerik şəhər sakini Hikmət Mövlanov 1 baş qaramal lizing yolu ilə almış və saxlayırlar. Süni mayalanma yolu ilə heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilir. Rayon üzrə 874 baş qaramalda süni mayalanma aparılmışdır.2017-ci ilin eyni dövrü ilə müqayisədə335 başdan yuxarıheyvanda bu tədbir həyata keçirilmişdir. Bu iş hal-hazırda da davam etdirilir. Rayon üzrə əvvəllər bir nəfər süni mayalanma mütəxəssisi olmuşdur. Əlavə üç nəfər mütəxəssis ixtisasartırma kurslarına göndərilmiş, onlar da bu işlə məşğul olmağa başlamışlar. Süni mayalanma yolu ilə 351baş, ötən illə müqayisədə 205baş çox buzov alınmışdır.Mal qaranın cins tərkibinin yaxşılaşdırılması üçün alınmış hər sağlam buzova görə 100 manat subsidiyanın verilməsi, heyvanların süni mayalandırılmasına maraq yaranmışdır. Lakin rayonun Veri, Siyov, Bürsülüm, Daster, Nücü, Çayrud, Tikəband, Tülüconu, Monidigah, Orand, Nuravud, Qosmalıan, Mistan, Cəngəmiran və Vizəzəmin ərazilərində mal-qara da süni mayalanma tədbirlərinin həyata keçirilməsinə maraq azdır. Yerlərdə bu sahədə təbliğat işlərinin aparılmasına böyük ehtiyac vardır. Ərazi icra nümayəndələri və bələdiyyələr köməklik göstərməli, əhali arasında maarifləndirmə işini gücləndirməlidirlər.

Bidiyimiz kimidövlət tərəfindən əkilən hər bir bitkiyə vəalınmış hər sağlam buzova görə subsidiya verilir. Subsidiyaların verilməsi məhsul istehsalının artırılmasında, əkin sahələrinin genişlənməsində müsbət rol oynayır. 2016-cı ildə 1895 nəfər məhsul istehsalçısına 182369 manat, 2017-ci ildə 2214 nəfər məhsul istehsalçısına 205919 manat subsidiya aqrokartlar vasitəsilə ödənilmişdir.Məhsul istehsalçılarına susidiyanın ödəniməsində şəffaflığın təmin edilməsindən ötrü elektron kənd təsərrüfatının tərkib hissəsi olan "Subsidiya və siyasətə dair informasiya sistemi" hazırlanmışdır. 2016-2017-ci ildə subsidiya almış məhsul istehsalçısının məlumatları hal-hazırda sistemə işlənilir. Süni mayalanmadan alınmış hər sağlam buzova görə ödəniləcək subsidiyalar bir başa elektron kənd təsərrüfatı sisteminə işlənilir. Süni mayalandırma yolu ilə alınmış sağlam buzova görə subsidiyaların ödənilməsinə 2016-cı ilin oktyabr ayından başlanılmışdır. 2017-ci ilin dekabr ayının 1-nə kimi 285 baş sağlam buzova görə 28500 manat məbləğində subsidiya ödənilmişdir. 2017-ci ilin dekabr ayında doğulmuş buzovlara görə subsidiyanın verilməsindən ötrü müvafiq sənədlər hazırlanaraq Kənd Təsərrüfatı Nazirliyinə təqdim olunmuşdur.

Cənab Prezident ötən ilin sentyabr ayının 3-də Lənkəran şəhərində keçirdiyi müşavirədə demişdir: "Kənd təsərrüfatı proritet sahə olaraq qalır və qalacaqdır. Eyni zamanda kənd təsərrüfatının şaxələndirilmiş şəkildə inkişaf etdirilməsi də qarşıda duran vəzifələrdəndir. Kənd təsərrüfatının bütün sahələri bizim üçün əhəmiyyətlidir. Biz ölkəmiz üçün ənənəvi olan sahələri dirçəldirik, bərpa edirik, yeni sahələr yaradılır. Qarşıya qoyulur ki, ənənəvi olan sahələrin bərpası, dirçəldilməsi prosesi növbəti illərdə daha da sürətlə getsin və biz tezlikləənənəvi sahələri bərpa edə bilək. Biz kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirərək bir neçə məqsədə çatmış oluruq. Ölkəmizin iqtisadi potensialı artır, idxaldan asılılq azalır, yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılır və Azərbaycan dünya bazarlarına öz keyfiyyətli məhsulunu təqdim edir".

Rayonumuzda sovet hakimiyyəti dövründə 3500 ha üzüm, 470 hadan çox meyvə bağı, 140 ha çay plantasiyası, 220 ha-dan artıq tütün, 300 ha-dan çox tərəvəz və digər bitkilər əkilmiş, ətlik-südlük istiqamətli heyvandarlıq, ixtisaslaşmış qoyunçuluq təsərrüfatları mövcud olmuşdur.Məlum səbəblərdən üzüm bağları, çay plantasiyaları məhv edilərək sıradan çıxmış, mal-qara, heyvandarlıq kompleksləri sökülərək əmlak payı kimi vətəndaşlara verilmişdir. Çay plantasiyaları rayonun Davradibi, Hücü, Piran, Hamarmeşə, Bibiyanı kəndlərinin ərazisində salınmışdı. Hazırda həmin çay sahələrindən Davradibi və Hücü kəndlərinin ərazisində müəyyən qədər qalmışdır. Ənənəvi kənd təsərrüfatı sahələrinin bərpası sahəsində rayonumuzda da işlər aparılır. Belə ki, 2017-ci ildə25 hektar sahədə tütün,ilk dəfə olaraq 50 mindən artıq fındıq bitkisi əkilmişdir. 19,6 ton tütün təhvil verilmişdir ki, bu da ötən illə müqayisədə 13,8 ton çoxdur. Bu gəlirli bitkinin əkilməsi üçün rayonumuzda imkanlar vardır. Bunun üçün rayonda suvarma sisteminin qurulması, tütünün qurudulması və qəbulu məntəqəsinin olmasıvacibdir.

Ənənəvi sahələrin inkişaf etdirilməsi üçün ilkin olaraq maliyyə mənbələri olmalı, fərdi təsərrüfatlarda olan torpaqlar birləşdirilməlidir. Rayonumuzda 9 mindən artıq arı ailəsi vardır. İl ərazində 120 tondan artıq bal məhsulu istehsal olunur.Bu sahənin inkişaf etdirilməsi üçün rayonumuzda imkanlar çoxdur. Arıçılığı inkişaf etdirməkdən ötrü güzəştli şərtlərlə uzun müddətli kreditlərin verilməsi, bal emalı və qablaşdırılması sexlərinin tikilməsi vacibdir.

Kənd təsərrüfatı işlərinin həyata keçirilməsi kollektiv əmək tələb edir. Bildiyiniz kimi kooperasiya haqqında qanun qəbul edilmişdir. 14 iyul 2017-ci il tarixdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında cənab Prezidentin Sərəncamı olmuşdur. Sərəncamda göstərilir ki,aqrar sektorun inkişafının indiki mərhələsi istehsalın effektiv təşkilini,torpaqdan səmərəli istifadəni, fermerlərin gəlirlərinin artırılmasını tələb edir. Bu vəzifələrin reallaşmasında birgə təsərrüfatçılıq forması kimi kənd təsərrüfatı kooperativləri mühüm rol oynayır. Torpaqların kooperativlərdə birləşdirilməsi, əkilib becərilməsi məhsul istehsalının artırılmasına səbəb olacaq, kooperativlərin texniki təminatı məsələləri də asanlaşacaq, əhalinin məşğulluğu təmin olunacaqdır. Xırda fermerlərin və fərdi təsərrüfatların koopetivlərdə birləşməsi istiqamətində əhali arasında təbliğat işlərinin aparılması üçün rayon kənd təsərrüfatı idarəsinin yanında rayon icra hakimiyyətinin nümayəndələri ilə birgə işçi qrupu yaradılmışdır.

Aqrar sahənin inkişaf etdirilməsi üçün kadrların olması vacib, deyərdim ki, birinci şərtlərdəndir. Rayonumuzda kənd təsərrüfatında çalışacaq savadlı və bacarıqlı kadrlara böyük ehtiyac vardır.Yeni yaranmış rayon kənd təsərrüfatı idarəsində işləmək üçün aqronoma, zootexnikə, baytar həkiminə, torpaqşünasa, aqrokomyaçıya, yerquruluşu mütəxəssisinə ehtiyac vardır.

Prezident İlham əliyev demişdir: "Dövlət əkin sahələrinə, yanacağa, gübrəyə subsidiyalar, sahibkarlara güzəştli şərtlərlə kreditlər, texnikalar verir. Fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddır. Yəni dövlət hər şey edir. İkinci bir dövlət tapmaq olmaz ki, fermerlərə bu qədər dəstək olsun". Prezidentin göstərdiyi bu diqqət və qayğıya aqrar sahədə çalışanlar özlərinin əməli işi ilə cavab verəcəklər.

***Mahmud Zahidov,***
***Lerik Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi***

## Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında 2018-ci il üçün vətəndaşların qəbulu günlərinin CƏDVƏLİ

| S/s | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qəbul günləri və saatı | Telefon |
|---|---|---|---|---|
| 1 | Bağırov Rövşən Elmidar oğlu | Lerik Rayon İcra Hakimiyyəti başçısı | II gün 10:00-da | 025 274-63-02<br>025 274-61-82 |
| 2 | Baxşıyev Cəlil Yüzbaşı oğlu | Başçının birinci müavini | I gün 11:00-da | 025 274-60-21 |
| 3 | Məlikov Habil Ağaxan oğlu | Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III gün 10:00-da | 025 274-60-22 |
| 4 | Vəliməmmədova Arzu Həmzə qızı | Başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV gün 10:00-da | 025 274-60-23 |
| 5 | İbrahimov Əflatun Əjdər oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | V gün 10:00-da | 025 274-46-68 |
| | Talıbov Gündüz Hümbətəli oğlu | İnformasiya təminatı və təhlil sektorunun müdiri | V gün 10:00-da | 025 274-60-61 |
| 6 | Bayramov Əlipənah Hüseynağa oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-54-70 |
| | Quliyev Araz Qurban oğlu | Hüquq şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-47-64 |

**Qeyd:** Azərbaycanın Milli Qəhrəmanları və onların ailə üzvləri, şəhid ailələri və Qarabağ əlilləri rayon icra hakimiyyəti başçısı aparatına müraciət edərkən növbədənkənar qəbul edilir.
Bayram günlərinə düşən qəbul günləri növbəti iş günlərinə keçirilir.

## Vətənim

Həyatda varlığımı təsdiq edəndir Vətənim,
Olmasa əgər ki, o, onsuz bir heçdir bədənim.
Ruhumun aynasıdır, o şah əsərimdir mənim,
Uca səslə deyirəm, cənnətməkandır Vətənim.

Anamın anasıdır, yolunda candan keçərəm,
Cənnətin yerinə mən ana Vətəni seçərəm.
Bu eşqi məndə görüb Tanrı da eləyər kərəm,
Xaliq də bilir bunu canımda candır Vətənim.

Ruhumun qidasıdır, axı ondan necə doyum,
Ondan gəlir çörəyim, havam mənim, həm də suyum.
Mən onun övladıyam, gərək onda bir iz qoyum,
Bu doğma ana yurdum, Azərbaycandır Vətənim.

Vətən mənim ürəyim, o həm gözümün nurudur,
O Xəzər suyu kimi şəffafdı, pakdı durudur.
İdris Vətən haqqında belə bir fikir yürüdür,
O mənim Kəbə evim, həm də Qurandır Vətənim.

***İdris Şükürlü***






## Nur saçarsınız

*Azərbaycan xalqının qüdrətli oğlu, bütün Türk dünyasının əvəzolunmaz lideri, dünya şöhrətli siyasətçi və diplomat, dahi mütəfəkkir, uzaqgörən filosof, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin əziz xatirəsinə.*

O gün bəd xəbərdən sarsıldı millət,
Gözünü yummuşdu dahi şəxsiyyət.
Bütün Azərbaycan batmışdı qəmə,
Bu xəbər yayıldı bütün aləmə.

Hər yerdən gəlirdi ağlaşma səsi,
Göz yaşı içirdi odlar ölkəsi.
Son mənzilə yola düşürdü rəhbər,
Milləti üzürdü acı qəm-kədər.

İnsanlar axışdı vida yerinə,
Ehtiram bəslədi öz rəhbərinə.
Əlvida söylədi Ulu Öndərə,
Heydər baba adı düşdü dillərə.

Ağrılara dözdü illərdən bəri,
Bu odlar yurdunun böyük rəhbəri.
Azadlıq bəxş etdi o, öz xalqına,
Millət də məhəbbət göstərdi ona.

Məzara qoyuldu o dahi insan,
Sükuta qərq oldu bir anlıq hər yan.
Haqqın dərgahına ruhu ucaldı,
Heydərin haqq sözü qəlblərdə qaldı.

Nələr yaratmışdı o dəyir gözə,
Həyat məktəbidi, örnəkdi bizə.
O qurdu müstəqil, milli dövləti,
Mövqeyində oldu hər zaman qəti.

Yat, yerin pambıq tək yumuşaq olsun,
Məzarın əbədi nur ilə dolsun.
Tarix yaşadacaq, Siz yaşarsınız,
Millətin yoluna nur saçarsınız.

## Yanvar gecəsi

Tutdu qara bulud Vətən üstünü,
Ağrılar taladı möhnət mülkünü.
Çünki xalq deyirdi öz haqq sözünü,
Töküldü haqsız qan yanvar gecəsi.

Silahı vətənə düşmən tuşladı,
Ədalətin vardı bir quru adı.
Bu günahsız xalqın qalxdı fəryadı,
Töküldü haqsız qan yanvar gecəsi.

Qorbaçov o gecə tapdı bəhanə,
Qoşunu yeritdi Azərbaycana.
O gecə qıydılar neçə cavana,
Töküldü haqsız qan yanvar gecəsi.

Silahlar səsləndi gecə susmadı,
Onların önündən millət qaçmadı.
Əbədiyaşardı şəhidlər adı,
Töküldü haqsız qan yanvar gecəsi.

Ölüm şərbətini şəhidlər içdi,
Qoca, cavan, körpə canından keçdi.
Vətən qəhrəmanın o gecə seçdi,
Töküldü haqsız qan yanvar gecəsi.

Şəhidlər qoyuldu çiyinlər üstə,
Xiyabana tərəf yollandı dəstə.
Qəmli nida qalxdı göyə ahəstə,
Töküldü haqsız qan yanvar gecəsi.

Millət şəhidlərə matəm saxladı,
Bütün Azərbaycan qara bağladı.
O gün nalə çəkib yer-göy ağladı,
Töküldü haqsız qan yanvar gecəsi.

Heydər qiymət verdi 20 Yanvara,
İnsan axır bura, verməyir ara.
Baş əyir insanlar hər bir məzara,
Töküldü haqsız qan yanvar gecəsi.

# "Hədəf Bakıdır" filmi Los Ancelesdə marağa səbəb oldu

Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilmiş və Arzu Əliyevanın baş prodüseri olduğu "Hədəf Bakıdır: Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli filmi Los Ancelesdə yerləşən, ABŞ-ın ən böyük və məşhur tibb mərkəzlərindən olan Cedars-Sinai Tibb Mərkəzində nümayiş etdirilib.

Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan verilən məlumata görə, Konsulluğun təşəbbüsü və dəstəyi ilə keçirilmiş tədbirdə tanınmış həkimlər, xarici ölkələrin baş konsulları, elm və mədəniyyət xadimləri, yerli KİV nümayəndələri, Azərbaycan, yəhudi və digər icmaların fəalları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Cedars-Sinai Tibb Mərkəzinin tanınmış kardioloqu İzhar Xaruzi (Yzhar Charuzi) sözügedən filmin tarixi-ictimai yaddaşın qorunması, İkinci Dünya Müharibəsinin geniş ictimaiyyətə məlum olmayan tərəflərinin işıqlandırılması baxımından yüksək önəm daşıdığını bildirib.

Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev isə Azərbaycan neft sənayesinin inkişaf tarixi haqqında danışaraq, 19-cu əsrdən başlayaraq neftin ölkəmizin sosial, iqtisadi və siyasi həyatında önəmli rol oynadığını qeyd edib. O, II Dünya Müharibəsində faşizm üzərində qələbənin əldə olunmasında azərbaycanlıların həm ön, həm də arxa cəbhədə göstərdiyi misilsiz xidmətlərdən bəhs edərək, müharibəyə gedən 700 min azərbaycanlıdan 400 mininin geri qayıtmadığını, bunun o vaxtkı Azərbaycan əhalisinin 10 faizini təşkil etdiyini söyləyib. Müharibənin qələbə ilə nəticələnməsində Azərbaycan xalqının rəşadəti və Bakı neftinin strateji rol oynadığını önə çəkən diplomat 1941-1945-ci illərdə Sovet ittifaqında neft hasilatının 70 faizdən, yanacaq istehsalının isə 80 faizdən çoxunun Bakının payına düşdüyünü vurğulayıb. O, bütün bunlardan bəhs



edən filmin Heydər Əliyev Fondunun mühüm dəstəyi və Arzu Əliyevanın baş prodüserliyi sayəsində ərsəyə gəldiyini və 2015-ci ildə məşhur "National Geographic" telekanalı vasitəsilə müxtəlif dillərdə bütün dünyaya yayımlandığını diqqətə çatdırıb. Baş konsul bildirib ki, filmin yaradılmasında məqsəd Azərbaycanın qəhrəmanlıq tarixini yaşatmaq, onu böyüməkdə olan gənc nəslə və dünya ictimaiyyətinə çatdırmaqdır.

Çıxışlardan sonra nümayişi etdirilən film tamaşaçıların gurultulu alqışları və böyük rəğbəti ilə qarşılanıb.

# Stalin haqqında düşünərkən



1980-cu ilin avqust ayı idi. Əlimə "Kommunist" (indiki "Xalq qəzeti") qəzeti düşmüşdü. Qəzetdə dərc edilmiş general-polkovnik D.A.Volkoqonovun "Baş katibin şəxsi həyatı" adlı yazısı diqqətimi cəlb elədi. Həmin yazı R.Nağıyev və C.Xəlilovun tərcüməsində "Zəfər və faciə İ.V.Stalinin siyasi portreti" kitabından götürülmüşdü. Yazı qəzetin bir neçə nömrəsində çap olundu. Məqalənin əvvəlində müəllif yazırdı: "Stalin onu tanıyanlara da, tanımayanlara da adi insan kimi görünürdü. Bu cür adi fəaliyyətin öz adi şəxsi həyatı olmalı idi - həmin şəxsi həyatdan danışılanda qulluqdan kənarda, işdən kənarda insana qalan nə varsa, hamısı nəzərdə tutulur. Stalinin siyasi portreti üçün bunlar əsas, müəyyənedici cəhətlər deyil, lakin onun təbiətini daha yaxşı başa düşəməyə imkan verir".

Əlbəttə, bu cür kitab yazanlar o zaman Stalinin qorxusundan söz deməyə cürət etmirdilər. İndi ondan fərəhlə söhbət açanlar tənqid edənlərdən daha çoxdur. Bir şeyi xüsusi olaraq qeyd etsəm yerinə düşər. Stalinin oğlu Yakov Djuqaçvili almanlara əsir düşür. Hitler əsir düşmüş generalı Paulusu Yakovla dəyişmək istəyir. Stalin rəhbərə xoş təmkinlə cavab verir: "Mən oğlumu düşmən generalı ilə dəyişmərəm". Axı, Stalinin əmri vardı: "Düşmənə əsir düşməkdənsə özünü güllələmək lazımdır". Avropanı cənginə almış, Rusiyanın içərilərinə doğru sürətlə irəliləyən hitlerçilər Stalinin Sovetlər birliyində yaratdığı polad nizam-intizam, özünün və sərkərdələrinin məharəti, partizan müharibəsi, xalqların birliyi, düşmənə qarşı sonsuz nifrət, əsgər və zabitlərin cəsarəti sücaəti nəticəsində II Dünya müharibəsində hitlerçilər məğlub oldu, dünya xalqları faşizm taunundan qurtuldu. Bu mənada İ.Stalinin müharibəni udmaq bacarığı tarixə yazıldı. Sovet qoşunundakı tankların və hərbi maşınların 75-80 faizi, aviasiya təyyarələrinin, qırıcıların 90 faizi Bakı nefti ilə hərəkətə gəlir, düşmənə sarsıdıcı zərbə vurulurdu.

Adını yazının əvvəlində qeyd elədiyim "Baş katibin şəxsi həyatı" yazısında keçmişdə məşhur partiya dövlət xadimi olmuş A.N. Şelepinin xatirəsi maraq doğurur: "Stalin öləndən sonra baş katibin əmlakının siyahısı tutulanda məlum oldu ki, bu iş çox asan imiş. Dövlətə məxsus pianinodan başqa heç bir qiymətli əşya tapılmadı. Hətta bircə dənə də olsun yaxşı, "əsl" şəkil yox idi. Ucuz mebel. Çexol çəkilmiş kreslolar. Əntiq şeylər adında heç nə. Divarlarda taxtadan düzəldilən sadə çərçivələrə salınmış kağız reproduksiyalar asılmışdı...

Döşəməyə iki xalça döşənmişdi. Stalin yatanda üstünə əsgər adyalı salırdı. Geyim-keçim adına marşal mündirindən başqa bir cüt adi kostyum (biri parusindən tikilmişdi), yamaqlı valenka və kəndli kürkü vardı..."

"Lerik" qəzetində İdris Şükürlünün bir məqaləsini oxumuşdum: "Stalin Lənkəranda bankı çapıbmı?" Bu məqalə marağıma səbəb oldu. Stalin (Koba) inqilab naminə, proletar hökümətinin qurulması üçün çox fədakarlıq, qətiyyət və qorxmazlıq göstərib. Dəfələrlə həyatı təhlükədə qalıb, həbs olunub, lakin tapşırıqları yerinə yetirib, məqsədinə nail olub. Onun Bakı, Lənkəran, Həştərxan, Tiflisi və digər şəhərlərdə çoxlu dostları olub. Stalin ona edilən yaxşılığı hec vaxt unutmayıb. Yeri gəlmişkən, yaxınlarda "Ədalət" qəzetində oxudum ki, Stalin 1907-ci ildə Tiflisdə 3 milyon dollarlıq bank soyğununu həyata keçirib. Soyğunçuların ələ keçirdiyi həmin pul bolşeviklərin ixtiyarına keçdi.



Nəhayət, yeni qurulan Sovet hökümətinə təpədən dırnağadək silahlanmış nasist Hitler Almaniyasının xaincəsinə basqını. Müharibədən qalib çıxmaq heç də asan olmayıb. Milyonlarla insan həlak olub, itkin düşüb, şikəst olub. Lakin Stalin kimi bir rəhbərin - generalissimusun siyasəti, qətiyyəti, uzaqgörənliyi sayəsində qalib olub. Çox keçməz ki, Qarabağ da azad olacaq, tarixi düşmənlərimiz tarixin qara ləkələrinə dönəcəklər.

***Hacı Tarverdi Həsənov,***
***"Rabitə ustası", əmək veteranı***

## Troya atı

Məcazi mənada xain niyyət, ikiüzlülük, xəyanət vasitəsi deməkdir.

Məşhur Troya müharibəsi haqqında əfsanələrdən yayılmışdır. Əfsanəyə görə, Troyanı ala bilməyən danaylar ağacdan nəhəng bir at düzəldib, içərisinə bir dəstə əsgər oturtmuşdular. Qoşun həmin atı çöldə qoyub çıxıb getmişdi. Məsələdən xəbərdar olmayan troyalılar darvazanı açıb atı şəhərə gətirirlər. Gecə gizlənmiş əsgərlər çıxıb şəhər darvazalarını açmaqla danayların Troyaya daxil olmasına imkan yaratmışdılar.

## Hippokrat andı

Həkimin əxlaq normalarını yığcam şəkildə səciyyələndirən formullardır. Bu formulların müəllifinin Hippokrat olduğu güman edilir. Məlumdur ki, Hippokratdan əvvəl qədim Misirdə də belə andlar tətbiq olunurdu.

Hippokrat eramızdan əvvəl V-IV əsrlərdə yaşamış (460-377) yunan həkimidir. Dünyada "təbabətin atası" kimi məşhurdur. Qədim tibb elminin banisi Hippokratın əsərləri Şərq ölkələrində xüsusilə çox yayılmışdır.

"Həkim təkcə dərmanla yox, həm də sözlə müalicə etməlidir" fikri də Hippokrata aid edilir.

## Allah rəhmət eləsin

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov başçılıq etdiyi aparatın kollektivi ilə birlikdə Cəlil Baxşıyevə, qardaşı **Cavanşirin** vaxtsız vəfatından kədərlənir, mərhumun ailəsinə başsağlığı verir.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən ASAN İmzası olmalıdır. ASAN İmza SİM kartını mobil operatorların **(Azercell, Bakcell, Nar Mobile)**nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə ASAN İmza sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi isə qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| ***Qanun pozuntuları*** | ***Məsuliyyət tədbirləri*** |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1) | **7000** manatdan **10 000** manatadək miqdarda cərimə və ya **3 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. |
| Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **3 ildən 7 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. |

Fəaliyyətinzlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

***Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195-1" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.***

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

İşə qəbul olunarəkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| *İşçinin hüquqları və üstünlükləri* | *Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə* | *Əmək müqaviləsiz fəaliyyət göstərdikdə* |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | X |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | X |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | X |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | X |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | X |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | X |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | X |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əmək haqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

***Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya "195-1" Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.***

## VERGİÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

### *Elektron qaimə-fakturaların tətbiqi haqqında*

**2018-ci il 1 yanvar** tarixdən etibarənstatusundan asılı olmayaraq **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməlidir.

Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicinin vəzifələrinə aid edilmişdir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən "Asan imza") vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edilkdən və elektron imza (o cümlədən "Asan imza") vasitəsi ilə imzalandıqdan sonramalların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- *birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,*
- *ikinci dəfə yol verdikdə **20 faizi,***
- *üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.*

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

## VERGİÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

### *Elektron qaimə-fakturaların tətbiqi haqqında*

**2018-ci il 1 yanvar** tarixdən etibarənstatusundan asılı olmayaraq **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməlidir.

Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicinin vəzifələrinə aid edilmişdir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən "Asan imza") vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edilkdən və elektron imza (o cümlədən "Asan imza") vasitəsi ilə imzalandıqdan sonramalların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- *birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,*
- *ikinci dəfə yol verdikdə **20 faizi,***
- *üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.*

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi***

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur

